İş № 2in(82)-870/2011

# 2 SAYLI BAKI İNZİBATİ-İQTİSADİ MƏHKƏMƏSİ

## QƏRARDAD

Müvəqqəti xarakterli müdafiə barədə

Hakim Rəna Böyükağa qızı Hüseynovanın sədrliyi,

Anar Kamal oğlu Ağayevin katibliyi ilə

İddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının cavabdehlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə, Bakı şəhəri İcra Hakimiyyətinə, «Azinko Holdinq» və «Meredian R Kommersiya Şirkəti» Məhdud Məsuliyyətli Cəmiyyətinə, üçüncü şəxs Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə qarşı inzibati aktların etibarsız hesab edilməsi, qanunsuz hərəkətlərə son qoyulması, maddi və mənəvi zərərin ödənilməsi tələblərinə dair iddia ərizəsi üzrə işi ilə əlaqədar iddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının müvəqqəti xarakterli müdafiə barədə ərizəsinə Bakı şəhərində 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin binasında 22 iyun 2011-ci il tarixdə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin 40-cı maddəsində nəzərdə tutulmuş qaydada baxaraq,

MÜƏYYƏN ETDİ:

İddiaçılar Şirinova Emma Mirsalevna və Şirinova Dilşad Mirsaleh qızı cavabdehlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə, Bakı şəhəri İcra Hakimiyyətinə, «Azinko Holdinq» və «Meredian R Kommersiya Şirkəti» Məhdud Məsuliyyətli Cəmiyyətinə, üçüncü şəxs Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə qarşı inzibati aktların etibarsız hesab edilməsi, qanunsuz hərəkətlərə son qoyulması, maddi və mənəvi zərərin ödənilməsi tələblərinə dair iddia ərizəsi ilə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət etmişlər. İddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının iddia tələbləri cavabdehlərin ərizəçilərin köçürülməsi ilə bağlı qəbul etdikləri inzibati aktların etibarsız hesab edilməsindən, ərizəçilərin mülkiyyət, mənzil, pis rəftara məruz qalmamaq hüquqlarının pozulmasına yönəlmiş hərəkətlərə son qoyulmasından, cavabdehlərin üzərinə iddiaçıların mülkiyyət hüququnun pozulmasına yönəlmiş halların tamamilə aradan qaldırılması vəzifəsi qoyulmasından, cavabdehlərin üzərinə Bakı şəhəri, Azadlıq prospektindəki 146/148 evi, onun torpaq sahəsini, eləcə də ona bitişik sahələri 01 iyun 2011-ci il tarixinə olan vəziyyətdə qoruyub-saxlamaq vəzifəsi qoyulmasından, cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsindən ərizəçilərin xeyrinə 300.000 manat tutulmasından, cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsindən iddiaçı Şirinova Emma Mirsalevnaya dəymiş mənəvi zərərə görə 5.000 manat, iddiaçı Şirinova Dilşad Mirsaleh qızına dəymiş mənəvi zərərə görə 7.000 manat tutulmasından ibarətdir.

Eyni zamanda, iddiaçılar Şirinova Emma Mirsalevna və Şirinova Dilşad Mirsaleh qızı müvəqqəti xarakterli müdafiə barədə ərizə ilə müraciət edərək, Bakı şəhəri Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evdə və həmin evin torpaq

sahəsində, eləcə də sahəyə bitişik ərazidə cavabdehlərə və başqa şəxslərə hər hansı söküntü işləri və iddiaçıların mülkiyyətindəki mənzillərin yerləşdiyi evə xələl gətirə biləcək hər hansı işlərin aparılması qadağan edilməsi barədə qərardad çıxarılmasını məhkəmədən xahiş etmişlər.

İş materiallarında olan Bakı şəhəri İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən verilmiş ÖM seriyalı 001190 №-li qeydiyyat vəsiqəsindən görünür ki, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti, 146/148 saylı evin 3 otaqdan ibarət olan 56 saylı mənzili Şirinova Emma Mirsalevnanın xüsusi mülkiyyətindədir.

İş materiallarında olan Nərimanov rayon Polis İdarəsi tərəfindən 19 yanvar 2010-cu il tarixdə verilmiş Azərbaycan Respublikasının Vətəndaşının AZE seriyalı 07608385 saylı şəxsiyyət vəsiqəsindən görünür ki, Şirinova Dilşad Mirsaleh qızının yaşayış yeri Bakı şəhəri, Azadlıq prospekti, ev 146/148, mənzil 56-dır.

Məhkəmə qeyd edir ki, iddia tələblərinin cavabdehlərin ərizəçilərin köçürülməsi ilə bağlı qəbul etdikləri inzibati aktların etibarsız hesab edilməsindən, ərizəçilərin mülkiyyət, mənzil, pis rəftara məruz qalmamaq hüquqlarının pozulmasına yönəlmiş hərəkətlərə son qoyulmasından, cavabdehlərin üzərinə iddiaçıların mülkiyyət hüququnun pozulmasına yönəlmiş halların tamamilə aradan qaldırılması vəzifəsi qoyulmasından, cavabdehlərin üzərinə Bakı şəhəri, Azadlıq prospektindəki 146/148 evi, onun torpaq sahəsinin, eləcə də ona bitişik sahələrin 01 iyun 2011-ci il tarixinə olan vəziyyətdə qoruyub-saxlamaq vəzifəsi qoyulmasından ibarət olmasına baxmayaraq, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evdə və həmin evin torpaq sahəsində, eləcə də sahəyə bitişik ərazidə cavabdehlərə və başqa şəxslərə hər hansı söküntü işləri və iddiaçıların mülkiyyətindəki mənzillərin yerləşdiyi evə xələl gətirə biləcək hər hansı işlərin aparılması qadağan edilməsi barədə ərizənin tam təmin edilməsi nəticəsində Bakı şəhəri Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evi, həmin evin torpaq sahəsi, eləcə də sahəyə bitişik ərazi ilə bağlı üçüncü şəxslərin hüquqlarının, o cümlədən mülkiyyət, qanuni istifadə və s. hüquqlarının həyata keçirilməsinə müdaxilə edilməsi və bununla da hazırkı mübahisəyə aidiyyəti olmayan şəxslərin qanuni maraqlarına xələl gətirilməsi istisna olunmur.

Ona görə də, məhkəmə hesab edir ki, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evdə və həmin evin torpaq sahəsində, eləcə də sahəyə bitişik ərazidə cavabdehlərə və başqa şəxslərə hər hansı söküntü işlərin aparılması qadağan edilməsi barədə xahişi yalnız iddiaçıların qanuni maraqlarının dairəsi çərçivəsində təmin edilə bilər.

Odur ki, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evdə və həmin evin torpaq sahəsində, eləcə də sahəyə bitişik ərazidə hər hansı söküntü işlərinin aparılması iddiaçı Şirinova Emma Mirsalevnanın Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evin 56 saylı mənzilinə dair mülkiyyət hüququna və iddiaçı Şirinova Dilşad Mirsaleh qızının həmin mənzildən qanuni istifadə hüququna xələl gətirə biləcəyi hallarda qadağan edilməlidir.

Məhkəmə xüsusilə qeyd edir ki, iddiaçı Şirinova Emma Mirsalevnanın Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evin 56 saylı mənzilinə dair mülkiyyət hüququ və iddiaçı Şirinova Dilşad Mirsaleh qızının həmin mənzildən qanuni istifadə hüququ mənzildən maneəsiz və real istifadə etməkdən ibarətdir. Yaşayış sahəsindən maneəsiz və real istifadə edilməsi Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evin 56 saylı mənzilə sərbəst giriş-çıxışın olması, yaşayış yeri olan mənzilə dair müvafiq kommunal xidmətlərin göstərilməsi və s. başa düşülməlidir və hazırkı iş üzrə yekun məhkəmə aktı qanuni qüvvəsinə minənədək

iddiaçıların mülkiyyət və mənzil hüquqlarına xələl gətirə biləcək hərəkətlərdən (hərəkətsizliyindən) çəkinməlidir.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 43.1. və 43.1.1-ci maddələrinə əsasən, mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin hüquqlarının qorunmasının xeyli dərəcədə çətinləşəcəyi səbəbindən ilkin təcili tənzimləmənin zəruri olması məhkəmə tərəfindən müvəqqəti xarakterli müdafiə barədə qərardadın qəbul edilməsi üçün əsas sayılır.

Həmin Məcəllənin 40.3-cü maddəsinə görə, məhkəmə müvəqqəti xarakterli müdafiə tədbiri qismində cavabdehin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək, yaxud müəyyən hərəkətlərə dözmək barədə vəzifə qoya bilər. Qanuni əsaslar olduğu hallarda məhkəmə üçüncü şəxslərin də üzərinə belə vəzifələr qoya bilər.

Məhkəmə hesab edir ki, mövcud vəziyyətin dəyişməsinə ehtimal olduğunu nəzərə alaraq, inzibati aktların etibarsız hesab edilməsi, qanunsuz hərəkətlərə son qoyulması, maddi və mənəvi zərərin ödənilməsi barədə iddia tələbləri ilə bağlı işi üzrə yekun məhkəmə aktı qanuni qüvvəsinə minənədək iddiaçı Şirinova Emma Mirsalevnanın mülkiyyətində olan Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evin 56 saylı mənzilinə xələl gətirə biləcək və mənzildən istifadə edilməsində maneəçilik törədə biləcək söküntü, tikinti, yenidənqurma və ya hər hansı digər işlərin aparılması qadağan edilməlidir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin 1.2., 40-43, 81, 86-cı və Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin 160.1-ci maddələrinin tələblərini rəhbər tutaraq, məhkəmə

QƏRARA ALDI:

İddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının müvəqqəti xarakterli müdafiə barədə ərizəsi qismən təmin edilsin.

İddiaçı Şirinova Emma Mirsalevnanın mülkiyyətində olan Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospektindəki 146/148 saylı evin 56 saylı mənzilinə xələl gətirə biləcək və mənzildən istifadə edilməsində maneəçilik törədə biləcək söküntü, tikinti, yenidənqurma və ya hər hansı digər işlərin aparılması qadağan edilsin.

Qərardad dərhal icra edilsin.

Qərardadın icrası Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə, Bakı şəhəri İcra Hakimiyyətinə, «Azinko Holdinq», «Meredian R Kommersiya Şirkəti» Məhdud Məsuliyyətli Cəmiyyətinə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə və Bakı şəhər Nərimanov rayon İcra şöbəsinə həvalə edilsin.

Müvəqqəti xarakterli müdafiə barədə qərardaddan 10 (on) gün müddətində 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin vasitəsilə Bakı Apellyasiya Məhkəməsinə şikayət verilə bilər.

SƏDRLİK EDƏN RƏNA HÜSEYNOVA

Düzdür: